Azərbaycan.- 2021.- 13 aprel. S. 8.

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 200-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 27-ci maddənin I hissəsinin ikinci cümləsində, IV-I hissəsinin 5-1-ci bəndində, V hissəsinin birinci cümləsində, 30-cu maddənin VI-I hissəsinin 4-1-ci bəndində, VIII hissəsinin birinci abzasında, 35-ci maddənin IV-I hissəsinin 1-ci və 1-1-ci bəndlərində, VII hissəsində, 83-cü maddənin II hissəsinin ikinci cümləsində, 85-1-ci maddənin adında və mətnində "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri ilə əvəz edilsin;

1.2. 37-ci maddənin IV hissəsinin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5) Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 327-ci maddəsinin "Qeyd" hissəsinin 7-1-ci bəndində nəzərdə tutulmuş hallarda yol-nəqliyyat hadisəsi yerini tərk edə bilər.";

1.3. 85-ci maddənin 2-ci bəndinin ikinci abzasında "və ya yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydalarının" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və ya avtomobil yollarından istifadə qaydalarının" sözləri ilə, "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları" sözləri isə ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və ya avtomobil yollarından istifadə qaydaları" sözləri ilə əvəz edilsin;

1.4. həmin Qanuna 1 saylı Əlavə - "Nəqliyyat vasitələrinin nasazlıqlarının siyahısı"nın VII hissəsinin 3-cü bəndi üzrə:

1.4.1. "hər hansı formada və ölçüdə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydanı pozmaqla" sözləri ilə, "və plyonka" sözləri ", jalüz və ya plyonka" sözləri ilə əvəz edilsin;

1.4.2. həmin bəndin "Qeyd" hissəsinin birinci və üçüncü cümlələri çıxarılsın.

**Maddə 2.** Bu Qanunun 1.4-cü maddəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən nəqliyyat vasitələrinin şüşələrinə örtüklərin çəkilməsi qaydası ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*